# İşğalçılar nə barədə susur?!

## Qərbi Azərbaycanda (Ermənistanda) milli və mədəni genosidin nəticələri

Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürüb torpaqlarımızı zaman-zaman işğal edən erməni şovunistləri işğalçılıq əməllərinə haqq qazandırmaq, yeni təcavüzkarlıq planlarını tarixi nöqteyi nəzərdən əsaslandırmaq və ictimai fikri çaşdırmaq məqsədilə Qərbi Azərbaycanın (indiki Ermənistan Respubilkasının) ərazisində mövcüd olan bütün tarix və mədəniyyət abidələrini, Qafqaz Albaniyasının xristian kilsəsinə aid bütün kilsə, məbəd və monastrları erməni abidələri elan edirlər. "Böyük Ermənistan" imperiyası barədə uydurma əfsanəni şişirdərək təkcə Azərbaycanın deyil, Gürcüstan, İran və Türkiyə ərazilərinin də xeyli hissəsini ermənilərin "tarixi torpaqları" hesab edirlər.

Qərbi Azərbaycandakı bir çox maddi mədəniyyət abidələri tarixi həqiqətlərdən bixəbər olan adamlara qəribə görünsə də, ermənilər onları yalandan öz abidələri elan etsələr də Azərbaycan xalqının mədəni irsinə aiddir.

Qafqaz Albaniyası dövlətinin ərazisi antik müəlliflərdən Klavdi Ptolomeyin və digər çoxsaylı yazılı tarixi mənbələrin məlumatına görə eramızın əvvəllərindən VIII əsrin əvvəlinədək cənubda Araz çayından Şimali Qafqazadək, şərqdə Xəzər dənizinin qərb sahilindən Göyçə gölündən qərbdə yerləşən torpaqlaradək geniş bir sahəni əhatə etmişdir.

Bu yerlərdə qədim zamanlarda maldarlıq, əkinçilik və sənətkarlıqla məşğul olan müxtəlif dilli tayfalar yaşamışlar. Bunların içərisində saklar, qarqarlar, kanqarlar, hunlar, şamaklar, türklər, muğlar, icmaxilər, suranlar, şirvanlar və digər türkdilli tayfalar üstünlük təşkil etmişlər. Eramızdan əvvəl V əsrdə yaşamış antik müəllif Heredot yazır ki, skiflər - türkdilli tayfalar midiyalılarla mühari-

bədə qələbə çaldıqdan sonra Qafqaz ərazisində dövlət yaratmışlar. Skif çarlığı kimi tanınmış bu dövlətin qədim Albaniya dövləti olduğu güman edilir.

Eramızın I əsrinin əvvəllərində (8-ci ildə) Roma imperatoru Avqustun əmri ilə paytaxtdan Qara dəniz sahillərinə sürgün edilmiş və uzun müddət bu yerlərdə yaşayıb yaratmış imperiyanın məşhur saray şairi Publiy Ovidiy Nazonun əsərlərindən məlum olur ki, eramızın əvvəllərində Qara dənizin şərq sahillərindən Xəzər dənizinədək böyük bir ərazidə skiflər - türkdilli tayfalar yaşamışlar. Bu fikri bir çox antik müəlliflər də təsdiq etmişlər. Tarixin atası Herodot (e.ə. V əsr), Miletli Qekatey (e.ə. VI-V əsr), Dionisiy Perieqet (e.ə. II əsr), K.Ptolomey (II əsr) və digər müəlliflərin əsərləri Qafqazın türk etnosunun vətəni olduğunu təkzibedilməz şəkildə sübut edir.

Qafqaz Albaniyasının tayfa ittifaqları başçılarının və çarlarının bir çoxunun adları türk mənşəli olmuşdur: Aran, Aray, Ərbaq, Baştaq, Əmbək, Ərnək, Həraq, Nuray, Dalak, Huray, Hiyran, Əncaq, Borc, Ərbun, Bəzək, Yusaq, Qaynaq, Sqayordu, Körnəg, Vaçıağan, Uray, Urnair, Satay, Asay, Varaz, Javanşir, Şiroy (Şiruyyə). Respublikamızdakı arxeoloji tapıntılar, xüsusilə arxeoloqlar R.Vahidovun, F,Osmanovun, A.Nuriyevin və T.Əliyevin aşkar etdikləri qədim türk kitabələri sübut edir ki, bu ərazidə qədim türk yazıları gürcü, erməni və alban yazılarından xeyli əvvəl mövcud olmuşdur. Bu əlifbaların hər üçü, xüsusilə, alban əlifbası qədim türk əlifbası əsasında tərtib edilmişdir.

Eramızın əvvəllərində Qərbi Azərbaycanın bir çox bölgələri Albaniyanın sak tayfalarının adları ilə bağlı Arsak və Sisakan sünik vilayətlərinin ərazisində olmuşdur. Bu isə təsadüfi deyil, çünki məlum olduğu kimi hələ eramızdan xeyli əvvəl Qafqaz dağlarından cənubda türk dilli sak tayfaları yaşamışlar. Qafqaz Albaniyasının ərazisində sakların adları ilə bağlı Sakasena, Balasakan, Sisakan, Saki, Arsak və bir sıra digər yer adları mövcud olmuşdur. Eramızın birinci əsrində yaşamış antik müəllif Strabon "Coğrafiya" əsərində bu faktı təsdiq edərək yazır: "Saklar da kimmerlər və trerlər kimi yürüşlər edib ən yaxşı torpaqlarda məskunlaşmışlar və bu ərazilərə öz adlarını qoymuşlar, məsələn - Sakasena".

Qənimət və qul ələ keçirmək məqsədilə qonşu tayfalar tərəfindən tez-tez edilən qarətçilik yürüşləri və daxili iqtisadi problemlərin birgə həll edilməsi zərurəti eramızdan əvvəl burada tayfa ittifaqlarının yaradılması və dövlətin meydana çıxmasına səbəb olmuşdur. Strabonun gözəl, ucaboy, ürəyiaçıq və səxavətli insanlar kimi xarakterizə etdiyi albanlar özlərini "ağuvanlar", yəni "mehriban insanlar", yaşadıqları ölkəni isə "Ağuvan" adlandırmışlar. Qədim Roma və yunan mənbələrində isə dövlətin adı "Albaniya" şəklində yazılmış, tarixə elə bu adla da daxil olmuşdur. Klavdi Ptolemey II əsrdə ölkədə 29 şəhər və iri yaşayış məntəqəsi olduğunu yazır.

Zaqafqaziyanın ərəblər tərəfindən işğalı dövründə, VIII əsrin əvvəllərində bu dövlət dağılmışdır. Hal-hazırda Azərbaycan Respublikası ərazisində Qafqaz Albaniyasının zəngin memarlıq irsinə aid xeyli məbəd, kilsə və monastrlar vardır. Albaniyanın həqiqi tarixinin və abidələrinin öyrənilməsi sahəsində son vaxtlar milli tədqiqatçı alimlərimiz tərəfindən müəyyən işlər görülmüşdür. Qərbi Azərbaycan ərazisində hələ xristianlıqdan xeyli əvvəl müxtəlif alban məbədləri mövcud olmuşdur.

Eramızdan əvvəl I əsrin sonları, eramızın I əsrinin əvvəllərində yaşamış antik müəllif Strabon Albaniyada yaşayan tayfaların dini etiqadlarından bəhs edərək yazır ki, onlar Heli (günəş), Zevs (atəş) və Selen (ay) ilahələrinə sitayiş edirdilər. Xüsusi etiqad etdikləri Ay ilahəsinin müqəddəs məbədi İberiya yaxınlığında yerləşir. Ölkədə günəş, ay və bütpərəstlik məbədləri ilə yanaşı çoxlu sayda atəşpərəstlik məbədləri də mövcud olmuşdur.

Məbədlərin inşasına və fəaliyyətinə rəhbərlik edən baş kahin çardan sonra ən hörmətli şəxs hesab olunurmuş. Məbədlərdən qaçıb meşələrdə gizlənən məbəd qulları kahinlərin göstərişi ilə tutulub müqəddəs zəncirlə bağlanır, bir il təmtəraqlı şəraitdə bəslənilib saxlanıldıqdan sonra məbəddə qurban verilirmiş. Bu məbədlərin bir hissəsi sonralar xristian məbədlərinə çevrilmiş, əksər hissəsi isə islam dininin yayıldığı dövrdə dağıdılmışdır. Qafqaz Albaniyasında atəşpərəstlik məbədlərinin tikilməsi eramızdan əvvəl VII əsrdə Zərdüştlük dininin yayılması ilə əlaqədar idi. Bu məbədlərin qalıqlarına Qərbi Azərbaycanda indi də təsadüf edilir.

Eramızın I əsrindən başlayaraq Roma imperiyası ərazisində yaranmış xristianlıq dini imperiya ilə iqtisadi və mənəvi əlaqələri olan Zaqafqaziyaya da yayılmağa başlamışdır. Alban tarixçisi Moisey Kalankatuklunun "Aqvan tarixi" əsərində Qafqaz Albaniyasında xristianlıq dininin yayılması, müxtəlif kilsə və məbədlərin tikilməsi barədə qiymətli məlumatlar vardır. Tarixi mənbələrdə Alban kilsəsi apostol kilsəsi adlandırılır. Çünki xristianlığı Albaniyaya eramızın 54-57-ci illərində apostol müqəddəs Yelisey gətirib. Təqribən üç əsr sonra parfiyalı missioner müqəddəs Qriqorisin fəaliyyəti nəticəsində ermənilər bütpərəstlikdən əl çəkib 327-ci ildə xristianlığı qəbul etmişlər.

Bu barədə Alban salnaməçisi Moisey Kalankatuklunun əsərində kifayət qədər məlumat vardır. 1130-cu ildə Gəncə şəhərində anadan olmuş, 1184-cü ildən ömrünün sonunadək Xaçın knyazlarının yanında xidmət etmiş alban salnaməçisi Mxitar Qoş özünün məşhur "Alban salnaməsi" əsərində bu tarixi faktı bir daha təsdiq edərək yazır: "... müqəddəs Yeliseydən müqəddəs Qriqorisə qədər 300 il keçmişdir". "Aqvan tarixi" salnaməsindən məlum olur ki, İsa peyğəmbərin şagirdi müqəddəs Faddeyin xristian dinini yaymaq məqsədilə Ermənistanda başlamaq istədiyi missionerlik fəaliyyəti faciə ilə nəticələnmiş, bütpərəst erməni çarı Sanatruk müqəddəs apostolu tutdurub qətlə yetirmişdir. Apostol Faddeyin şagirdi müqəddəs Yelisey Qüds şəhərinə qayıdıb apostolun şəhid olduğunu bildirir. İsa peyğəmbərin din qardaşı müqəddəs Yakov xristianlığı təbliğ etmək üçün müqəddəs Yeliseyi Albaniyaya göndərir. Çola vilayətində missionerlik etdikdən sonra ölkənin Uti vilayətinin Kiş kəndinə gələn müqəddəs Yelisey orada kilsə tikdirir. XIX əsrin 30-cu illərində Cənubi Qafqaz Rusiyaya birləşdirildikdən sonra Alban kilsəsi ermənilərin təhriki və Rusiya Sinodun qərarı ilə rəsmi şəkildə ləğv edildikdən sonra bir çox digər alban məbədləri kimi bu məbədin də kitabəsi təmiz pozulmuşdur.

Albaniya çarı III Vaçaqanın, ölkənin görkəmli din və dövlət xadimlərinin iştirakı ilə keçirilmiş Alban kilsəsinin 488-ci il Aluen məclisindən sonra xristian memarlığı üslubunda məbədlərin inşası geniş vüsət almışdı. III Vaçaqanın (487-510-cu illər) hakimiyyəti dövründə Albaniyada 300-dən çox kilsə və məbəd tikilmişdir. VII əsrin ortalarına yaxın ölkədə ixtiyarla-



rında kəndlər və torpaq sahələri olan 30-dan artıq monastr olmuşdur. Qərbi Azərbaycan ərazisində Albaniya çarları tərəfindən xristian məbədləri və monastrların tikilməsi barədə "Alban tarixi" sahəsində məlumatlar vardır. Alban xristian məbədlərinin bir qismi hal-hazırda mövcuddur. Lakin ermənilər tərəfindən müxtəlif dövrlərdə bu abidələrin kitabələri pozulmuş və məbədlərin ermənilərə aid olduğunu göstərən yeni saxta kitabələrlə əvəz olunmuşdur.

Qərbi Azərbaycan ərazisindəki aşağıdakı alban xristian məbədlərini buna misal göstərmək olar:

Zəngəzurda Tatev monastr kompleksi (IX-XII əsrlər); İcevanda Ağarçin monastr kompleksi (IX-XII əsrlər); İcevanda Kecəris monastr kompleksi (XI əsr); Karkor məbədi (X əsr); Qoşavənd kilsəsi (XIII əsr) və s.

Şaqakat məbədi, Üçkilsə (1945-ci ildən-Eçmadzin) rayonunda Üçkilsə məbədindən şimal-şərqdə, Üçkilsə və Müqəddəs Ripsime məbədlərinin arasında yerləşir. V əsrə aiddir. Masdərə məbədi -Talın rayonunun Masdərə (1965-ci ildən Dalarik) kəndində, Masdərə çayının kənarında yerləşir, V-VII əsrlərə aiddir. Günbəzli məbəddir. Öz adını Masdərə kəndindən almışdır. Aşelişad-Xorvirab məbədi. -Vedibasar mahalının aran hissəsində, Araz çayı sahilində. V əsrə aiddir. Avan məbədi -Qırxbulaq mahalında, Ellər (1961-ci ildən-Abovyan) rayonunun Avan kəndində, İrəvandan Baş Gərniyə gedən yolun üstündə yerləşir. VI əsrdə tikilmişdir. Uzunlar məbədi - Allahverdi (1969-cu ildən-Tumanyan) rayonunun Uzunlar (1968-ci ildən-Odzun) kəndində yerləşir. VI əsrdə inşa edilmişdir. Yağaverdi məbədi-Əştərək rayonunun Yağaverdi kəndində yerləşir. VI-VII əsrlərə aiddir. Putqun məbədi -Qırxbulaq mahalında, Ellər (1961-ci ildən-Abovyan) rayonunun Putqun kəndində yerləşir. VI əsrin sonları-VII əsrin əvvəllərinə aiddir. Üçkilsə məbədi (1945-ci ildən - Eçmiədzin) ərazisində yerləşir. V əsrə aiddir. Müqəddəs Ripsime məbədi, Üçkilsə (12.03.1945-ci ildən-Eçmiədzin) rayonu ərazisində, Üçkilsə məbədindən təxminən 1 km şərqdə yerləşir. V əsrə aiddir.

"Alban tarixi" salnaməsinin müəllifi Moisey Kaqankatuklunun, salnaməçi Mxitar Qoşun və digər çoxsaylı tarixi mənbələrin məlumatlarına görə XIII əsrdə Yuxarı Xaçın alban knyazı, Arsax hakimi Həsən Calal Dövlə, onun anası Vaxtanq, gəlini Arzu xatun, oğlu Baxram və knyaz Həsənin nəslindən olan digər knyazlar Qərbi Azərbaycan ərazisində xeyli xristian məbədləri tikdirmiş və təmir etdirmişlər. Alban xristian kilsəsi 1836-cı ildə Rusiya dini işlər idarəsinin qərarı ilə ləğv olunana qədər xristian kilsə və məbədlərin inşası işini davam etdirmişdir.

Tədqiqatçı alimlərin fikrincə ərəb işğalından sonra Albaniyanın Sisakan-Sünik vilayətində xristian memarlıq məktəbi IX-X əsrlərdə güclü inkişaf etmişdi. Ərəb xilafətindən asılı olan Sisakan xristian vilayətində özünəməxsus memarlıq planlaşdırma xüsusiyyətləri olan xristian məbədləri inşa edilmişdir. Zəngəzurda tikilmiş və zəmanəmizə gəlib çatmış məşhur Tatev monastr kompleksi (IX-XII əsrlər) bu abidələr içərisində orijinal memarlıq kompozisiya həlli nöqteyi-nəzərdən diqqətəlayiqdir. Monastrın baş məbədi xaçvari künbəzlə tamamlanır. Xaçşəkilli plan quruluşlu məbədlər Sünik memarlıq məktəbinə xas olan başlıca xüsusiyyətlərdən biridir. Sisakan vilayətində X əsrdə inşa olunmuş məşhur alban məbədi olan Karkor kilsəsində plan quruluşu xaçşəkillidir.

Alban katalikosluğunun taxtı IV-V əsrlərdə Dərbənddə Çola monastrında, VI-VII əsrlərdə Bərdə monastrında, VIII-IX əsrlərdə Ağdərə rayonunda müqəddəs Yelisey monastrında, X-XV əsrlərdə Kəlbəcər rayonunda Xudavəng monastrında, XV-XIX əsrlərdə Gəncəsər monastrında yerləşmişdir. Ərəb müəllifi Əl-İstəhrinin məlumatından aydın olur ki, VII əsrin sonlarında Qərbi Azərbaycan ərazisinin xeyli hissəsi Qafqaz Albaniyasının tərkibində olmuşdur.

VII əsrin ortalarında Qafqaz Albaniyası ərəblər tərəfindən işğal edildikdən sonra Qafqaz Albaniyası ərazisində əhalinin bir hissəsinin islamlaşması, dağlıq hissəsində isə xristian dinli əhalinin erməniləşməsi kimi mürəkkəb etnik proses uzun müddət davam etmiş və alban tayfalarının birləşib vahid xalq halında formalaşmasına mane olmuşdur.

Ərəb işğalçılarına qarşı baş verən üsyanlardan təşvişə düşən Xilafət ölkədəki şəhərlərin qala divarlarını, güclü qalaları, məbədləri dağıdır, cəza tədbirlərinə və hiylələrə əl atırdı.

Eramızın V əsrindən etibarən xristianlığın diofizit təriqətinə mənsub Alban pravoslav kilsəsi ilə monofizit təriqətinə aid erməni Qriqoryan kilsəsi arasında başlamış mübahisələr və çəkişmələr əsrlər boyu davam etmişdir. Diofizit təriqətinin banisi Roma imperiyasının məşhur din xadimi Papaz I Lev olmuşdur. Diofizitlər belə hesab edirlər ki, dua edərkən müqəddəs Məriyəmi "ilahi anası" adlandırmaq günahdır. İsus Xristos təbiət etibarilə iki mahiyyətlidir, yəni müqəddəs ruh olmaqla yanaşı, həm də insandır. V əsrdə yepiskop Yevtix tərəfindən yaradılmış monofizit təriqətinin tərəfdarları isə Xristosu yalnız ilahi ruh hesab edirdilər. Bizans imperatoru Markian Flavinin hakimiyyəti dövründə, 451-ci ildə Xalkedon şəhərində keçirilmiş IV Ümumkilsə qurultayı ermənilərin mənsub olduqları monofizit təriqətinin tərəfdarlarını kafir adlandıraraq lənətləmişdi.

Bizans imperatoru ilə həmrəy olan Alban kilsəsinin başçısı Nerses Bakur ilə erməni kilsəsinin başçısı İlya arasında dini zəmində davam edən çəkişmələrdən işğalçılar məharətlə öz xeyirlərinə istifadə etdilər.

Bizans kilsəsi ilə əməkdaşlıq edən Alban kilsəsinə zərbə vurmaq məqsədilə VII əsrin əvvəllərində Mərvan ibn Məhəmmədin başçılığı ilə ərəb qoşunları Albaniyaya yürüş etdi. 701-ci ildə Xilafətin cəza dəstələri tərəfindən mühasirəyə alınmış Bərdə şəhərində Nerses Bakur və alban çarı Varaz Tiridatın arvadı çariça Sparama mühakimə edilib, işgəncə ilə öldürüldü. Təcili çağırılmış Kilsə qurultayında bütün alban yepiskoplarına erməni kilsəsi ilə ittifaq haqqında saziş imzalatdırıldı. Faktiki olaraq Alban kilsəsi Xilafətlə əməkdaşlıq edən erməni kilsəsinə tabe edilmişdi. Lakin çox tezliklə Alban kilsəsi öz müstəqilliyini bərpa edə bildi. Qədim erməni dili rəsmi kilsə dili olduğundan alban tayfalarının dillərində olan, alban əlifbası ilə yazılmış dini kitablar, salnamələr, epiqrafik yazılar məhv edilmişdir. 705-ci ildə Mərvan ibn Məhəmmədin hücumundan sonra alban çarı Şero hakimiyyətdən salınmış, Qərbi Azərbaycan əraziləri ərəb Xilafətinin bir əyalətinə çevrilmişdi. Xilafətin əyalət üzrə canişininin qərargahı Bərdə şəhərində yerləşmişdi.

Elmə çoxdan məlum olan belə bir tarixi həqiqəti bir daha xatırlatmaq istərdik ki, nəinki Qərbi Azərbaycan, heç Qafqaz ərazisi də heç vaxt ermənilərin vətəni olmamışdır. Nüfuzlu

şərqşünas alimlərin fikrincə, erməni etnosu eramızdan əvvəl II minilliyin sonu, I minilliyin I yarısında Fərat çaının yuxarı vadilərində formalaşmışdır.

Məlum olduğu kimi eramızdan əvvəl 66-cı ildə II Tiqran hakimiyyəti dövründə Ermənistan dövlət müstəqilliyini itirərək Roma imperiyasının vassalına, əyalətinə çevrilmişdi. Bu hadisəni təsdiq edən antik Roma müəllifi Fest "Roma xalqının tarixinin qısa xülasəsi" əsərində yazır: "...İmperator Troyanın hakimiyyəti dövründə Böyük Ermənistan çarının hakimiyyəti əlindən alındı: Ermənistan, Mesopotamiya. Assuriya və Ərəbistan əyalətlərə çevrildilər". Qədim erməni salnaməçisi Movses Xorenatsi eramızın I əsrində baş vermiş hadisələrdən bəhs edərkən Albaniyanın cənub sərhədinin Araz çayı olduğunu təsdiq edir. 387-ci ildə bağlanmış sülh müqaviləsinə əsasən vassal Ermənistan dövlətinin mövcudluğuna son qoyulmuşdu. Onun bütün ərazisi Roma və Sasani dövlətləri arasında bölüşdürülmüşdü. Orta əsrlərdə heç bir müstəqil erməni dövləti mövcud olmamışdır. Qərbi Azərbaycan ərazisinin daxil olduğu Sisakan-Sünik knyazlığı 571-ci ildən Atropatenanın, sonralar isə yenə Albaniyanın vilayəti olmuşdur. Naxçıvan ərazisi VII-IX əsrlərdə Ərəb Xilafətinin, IX-X əsrlərdə Sacilər dövlətinin, X əsrdə Salarilər dövlətinin, XI əsr XII əsrin ortalarınadək Naxçıvan şahlığının, XII-XIII əsrlərdə Atabəylər dövlətinin, XIII-XIV əsrlərdə Hülakilər dövlətinin, XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin, XVI-XVII əsrlərdə Səfəvilər dövlətinin, XVIII əsrin II yarısından XIX əsrin I yarısınadək İrəvan xanlığının, XIX əsrdən 1917-ci ilədək Rusiya imperiyasının tərkibində olmuşdur.

Xalqımızın torpaqlarına göz dikmiş erməni şovinistləri bu tarixi həqiqətlərdən yarasalar günəşdən qorxan kimi qorxurlar. Buna görə də Naxçıvanın tarixini istədikləri şəkildə saxtalaşdırırlar.

Tarixi faktların və mənbələrin araşdırılması göstərir ki, Qərbi Azərbaycan ərazisindən həmvətənlərimizin deportasiyası və ermənilərin orada məskunlaşdırılması XIX əsrin birinci yarısında Rusiya-İran və Rusiya-Türkiyə müharibələri nəticəsində bu ərazilər Rusiyanın tərkibinə daxil edildikdən sonra başlamış, gah müxtəlif bəhanələrlə gizli, gah da açıq zorakılıq yolu ilə həyata keçirilmişdir.

Türkiyə və İran ilə sərhəd ərazilərdə Rusiya imperiyasının təhlükəsizliyini təmin etmək məqsədilə bu regionda əhalinin demoqrafik tərkibinin dəyişdirilməsi, müsəlman türklərin sıxışdırılması siyasəti 1911-ci ildə Sankt-Peterburqda nəşr olunmuş "Rus işinə Zaqafqaziyada yeni təhlükə" adlı kitabda öz əksini tapmışdır. Əsərin müəllifi N.İ.Şavrovun yazdıqlarından məlum olur ki, regionda əhalinin etnik tərkibinin dəyişdirilməsi məqsədilə rəsmi olaraq 1828-ci ildən 1880-cı ilədək Türkiyədən 84.600, İranın Urmiya, Marağa, Səlmas, Xoy və digər xanlıqlarından 40 mindən artıq erməni köçürülüb İrəvan quberniyası və Qarabağ xanlığının ərazisində müsəlman mülklərində məskunlaşdırılmışdır. Rusiya dövləti tərəfindən 1829-1832-ci illərdə İrəvan əyalətində və Naxçıvanda əhalinin siyahıya salınması aparılmışdır. Bu ərazilərdə əhalinin ümumi sayı 164 min 450 nəfər olduğu müəyyənləşdirilmişdir. İ.Şopenin rəhbərliyi ilə keçirilmiş bu ilkin siyahıya alınmadan məlum olur ki, o dövrdə ermənilər əhalinin cüzi bir hissəsini təşkil edirmişlər. İrəvan əyalətində cəmi 20 min 73 nəfər, Ordubad dairəsində isə cəmi 2 min 388 nəfər erməni yaşayırmış. 1896-cı ildə Türkiyədə erməni şovunistlərin dövlət əleyhinə hərbi qiyamları yatırıldıqdan sonra ermənilərin Cənubi Qafqaza kütləvi mühacirətinin yeni mərhələsi başladı. Şübhəsiz ki, Rusiya dövləti tərəfindən görülən tədbirlər regionda demoqrafik balansa nəzərə çarpacaq dərəcədə təsir göstərirdi. Bununla belə Qafqaz Təqviminin illik statistik məlumatlarından görünür ki, XIX əsrin sonu XX əsrin əvvəllərində Qərbi Azərbaycan ərazisində əhalinin böyük əksəriyyətini azərbaycanlılar təşkil etmişlər.

1916-cı ildə olan məlumata görə, İrəvan qəzasında əhalinin cəmi 48 faizi ermənilərdən ibarət olmuşdur. İ.N.Şavrovun məlumatına görə 1911-ci ildə Cənubi Qafqazda yaşayan erməni əhalisinin 80 faizini İran və Turkiyədən köçüb gəlmiş mühacirlər təşkil edirdilər.

1905-1918-ci illərdə Qərbi Azərbaycanda erməni şovinistlərinin azərbaycanlılara qarşı törətdikləri qanlı cinayətlər on minlərlə soydaşımızı yurd-yuvalarını tərk etməyə vadar etmişdi. Birinci dünya müharibəsinin sonlarına yaxın Türkiyəni daxili separatçı qüvvələrin əli ilə sarsıtmaq məqsədi güdən Antanta bloku dövlətləri tərəfindən maliyyələşdirilən və silahlandırılan cinayətkar Andronikin quldur dəstələri Qərbi Azərbaycan torpaqlarında azərbaycanlıları kütləvi surətdə qırır, yaşayış məntəqələrindən zorla qovub çıxarır, boşaldılan kəndlərə Türkiyədən deportasiya edilən erməniləri məskunlaşdırırdılar. Bu hadisələr zamanı erməni şovinistləri tərəfindən on minlərlə günahsız azərbaycanlı qətlə yetirilmiş, məscid binaları yandırılmış, Türkiyədən Qərbi Azərbaycana 200 minə yaxın erməni köçürülmüşdür.

1941-1945-ci illər müharibəsindən qalib çıxmış Rusiyanın dövlət başçıları ənənəvi rəqib hesab etdikləri Türkiyə ilə haqq hesabı çürütmək niyyəti ilə planlar qurur, bəhanələr axtarırdılar. Ehtimal olunan hərbi əməliyyat zonasından-Qərbi Azərbaycandan 1948-1953-cü illərdə soydaşlarımızın köçürülməsi də, zənnimizcə, bu niyyətlərdən irəli gəlirdi.

"Ermənistan SSR-dən kolxozçuların və azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli, 4083 nömrəli bədnam qərarından sonra soydaşlarımızı əsrlər boyu yaşadıqları vətən torpaqlarından zorla köçürüb respublikamızın aran rayonlarında yerləşdirməyə başladılar. Rəsmi təbliğat riyakarcasına iddia edirdi ki, deportasiyanın güddüyü əsas məqsəd Kür-Araz ovalığında işçi qüvvəsinin çatışmazlığı problemini həll etməkdən ibarətdir. Halbuki, bu illərdə Qərbi Azərbaycanda xaricdən kütləvi şəkildə axışıb gələn erməni mühacirlər dövlət tərəfindən məskunlaşdırılırdı. 1948-1953-cü illərdə Qərbi Azərbaycandan 500 minə yaxın soydaşımız zorla köçürülmüşdür.

1988-1991-ci illərdə SSRİ imperiyasının süqutu dövründə milli şovinizm siyasəti faktiki olaraq dövlət siyasətinə çevrilmiş Ermənistandan, bütün azərbaycanlı əhali ulu əcdadlarının min illər boyu yaşadıqları torpaqlardan zorla və quldurluqla qovulmuşlar. İndi Qərbi Azərbaycanın əhalisi ancaq ermənilərdən ibarətdir. Xalqımızın tarixi keçmişinə aid maddi-mədəniyyət abidələrinin bir hissəsi erməniləşdirilmiş, islam mədəniyyəti abidələri isə yerlə yeksan edilmişdir.

1832-ci ildə Rusiya mütəxəssisləri İrəvan şəhərində 12 məscid binasını qeydə almışlar. Bunların bir çoxunun adları məlumdur: Qala məscidi, Şah Abbas məscidi, Zal xan məscidi,



Novruzəli bəy məscidi, Sərtib xan məscidi, Hüseynəli xan məscidi, Hacı İmamverdi məscidi, Hacı Cəfər məscidi və başqaları.

Vaxtilə Qərbi Azərbaycan ərazisində mövcud olmuş abidələrimizdən bəzilərini xatırlatmaq istərdik.

Elmi ədəbiyyatda olan məlumatlara görə İrəvan qalası Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətainin göstərişi ilə XVI əsrdə inşa edilmişdi. Osmanlı-İran müharibələri zamanı qalanın dağılmış hissələri 1582-83-cü illərdə bərpa edilmişdi. Qalanın uzunluğu 850 m, eni 790 m, qala divarlarının hündürlüyü 10 m olmuşdur. Bu qala təqribən 1000 m məsafədən Keçiqala adlandırılan ikinci qala ilə əhatə olunmuşdu. XIX əsrin sonlarında İrəvan qalasını ermənilər tamamilə dağıtmışlar.

Sərdar xan sarayı adlandırılan memarlıq abidəsi İrəvan qalasında yerləşirdi. Səfəvilər dövründə inşa edilmiş, sonralar İrəvan xanlarının sarayı olmuşdur. 1760-1770-ci illərdə İrəvan hakimi Hüseynəli xan (1762-1783-cü illər) binanı əsaslı bərpa etdirmiş, oğlu Məhəmməd xan (1784-1805-ci illər) isə sarayın məşhur Güzgülü zalını və yay iqamətgahını inşa etdirmişdi. Sərdar xan sarayı XX əsrin I yarısında ermənilər tərəfindən dağıdılmışdır.

Şah Abbas məscidi İrəvan qalasında yerləşirdi. Sərdar Sarayının şərqində yerləşən bu məscid 1606-cı ildə Səfəvi hökmdarı I Şah Abbas (1587-1629) tərəfindən inşa edilmişdir. Məscidin ətrafında mədrəsə, kitabxana, karvansaray və onları əhatə edən böyük həyət, həyətdə hovuz olmuşdur. Qala Sərdar Məscidi - "Qala məscidi" və ya "köhnə məscid" İrəvanda 1510-cu ildə Şah İsmayılın əmri ilə tikilmişdir. 1589-cu ildə osmanlılar tərəfindən bərpa edilmişdir. Onu "Sərdar məscidi" də adlandırırdılar. Hacı Novruzəli məscidi İrəvan şəhərində yerləşir. XVIII əsrin II-ci yarısında tikilmişdir. Məscid şəhərin Hacı Novruzəli məhəlləsində (dəmiryolu vağzalı yaxınlığında) yerləşir. Orta əsrlərdə Səfəvilərin hakimiyyəti illərində və İrəvan xanlarının dövründə İrəvan şəhərində və bazar meydanının ətrafında karvansaraylar inşa edilmişdi. Bişmiş kərpicdən tikilmiş bu memarlıq abidələri XVI-XVIII əsrlərə aiddir. XIX əsrin I yarısında İrəvanda aşağıdakı karvansaraylar mövcud olmuşdur: Culfa karvansarayı, Gürcü karvansarayı, Zöhrab xan karvansarayı, Tahir karvansarayı, Hacı Əli karvansarayı, Sulu karvansaray, Susuz karvansaray və başqaları. Bu milli memarlıq abidələrimizin çoxu ermənilər tərəfindən dağıdılmışdır. Dəmirbulaq məscidi İrəvan şəhərində yerləşir. Şəhərin Dəmirbulaq məhəlləsində yerləşdiyi üçün "Dəmirbulaq məscidi" adlanır. Bu məscidə xalq arasında "Günlüklü məscid" də deyilir. Məscidi Hacı Müzəffər XVII-XVIII əsrlərdə inşa etdilmişdir.

Pir Hüseyn türbəsi - Zəncibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 14 km şimalda, İrəvan şəhərinin yaxınlığında yerləşən Cəfərabad kəndində yerləşir. Qırmızı tuf daşdan inşa edilmişdir. Səkkizgüşəli türbədir.

Qaraqoyunlu əmirlərinin sərdabəsi üstündə ucaldılan türbənin hündürlüyü 12 m olmuşdur. Türbəni yuxarıdan kəmərvarı əhatə edən ərəbdilli kitabədə Çuxur Səd vilayətinin Sakadlı tayfasından olan əmirləri Pir Hüseyn və atası Əmir Səədin (1411-ci ildə vəfat etmişdir) adları yazılmışdır.Türbə XV əsrə aiddir.Urud qəbirstanlığında qəbirüstü abidələr XV-XVII əsrlərə aiddir. Zəngəzur mahalının Qarakilsə (1940-cı ildən - Sisian) rayonunun Urud (1968-ci ildən - Vorotan) kəndindəki orta əsr qəbiristanlığında yüzə qədər üstü yazılı qəbirüstü sənduqələr və qoç heykəlləri vardır. Hamamlı rayonunun Saralı kəndində yerləşən XIX əsrə aid memarlıq abidəsi olan məscid binasını 1988-ci ildə ermənilər dağıtmışlar. Göy məscid və ya Hüseynəli xan məscidi İrəvan şəhərində yerləşir.Tikintisinə 1764-cü ildə başlanmış, 1764-cü ildə İrəvan hakimi Hüseynəli xan Qaçar (1762-1783) tərəfindən tamamlanmış, onun adı ilə Hüseynəli xan məscidi adlanmışdır. Göy məscid İrəvan məscidləri içərisində ölçüsünə görə ən böyüyüdür. İrəvan şəhərinin mərkəzi məscidi idi. Məscid kompleksi ibadət və din xadimləri üçün yaşayış otaqlarından ibarətdir. Yüzlərlə maddi mədəniyyət abidələrimiz dağıdılmış, bəzilərinin isə adları dəyişdirilmiş və erməni abidələri kimi təqdim olunur.

1921-ci ildən sonra Qərbi Azərbaycan ərazilərində olan şəhər, yaşayış məntəqələri və kəndlərin tarixi adları dəyişdirilib erməniləşdirilmişdir.

Allahverdi, Qızılqoç, Calaloğlu, Karvansaray, Hamamlı, Böyük Qarakilsə, Gümrü, Barana, Vorontsovka, Amasiya, Əltik, Əştərək, Molla Göycə, Abaran, Yuxarı Talın, Dilican, Qırmızı kənd, Yelenovka, Axta, Kəvər, Basarkeçər, Aşağı Qaranlıq, Soylan, Keşişkənd, Gorus, Qafan, Qarakilsə və Meğri yaşayış məntəqələrində azərbaycanlılara məxsus orta əsrlərə aid qəbiristanlıqlar, qoç və at fiqurlu dekorativ məzar daşları, türbələr, məscidlər, ümumiyyətlə, islam mədəniyyətinə aid bütün maddi-mədəniyyət abidələri dağıdılmışdır. İctimai fikri çaşdırmaq məqsədilə İrəvan şəhərində yerləşən Göy məscid "Fars məscidi" adlandırılıb və təmir edilib ki, İrandan gələn tacirlər və iş adamları ibadət etsinlər.

1990-cı illərin əvvəllərində Azərbaycan Respublikasına qarşı əsassız ərazi iddiaları irəli sürüb, beynəlxalq hüquq normalarını pozaraq hərbi təcavüz yolu ilə Birləşmiş Millətlər Təşkilatına üzv olan bütün dövlətlər tərəfindən ölkəmizin rəsmən tanınmış ərazisini işğal etmiş Ermənistan hərbi birləşmələri milli mədəniyyət abidələrimizi qəddarcasına dağıtmışlar. İşğal zonalarında maddi mədəniyyət yadigarlarımızın dağıdılması prosesi hələ də davam edir. İşğal zonalarında xalqımızın mədəni irsinə aid olan yüzlərlə abidə qalmışdır. İşğalçılar geniş miqyaslı, qeyri peşəkar arxeoloji qazıntı işləri aparır, kurqanları dağıdır, qarət etdikləri tapıntıları Ermənistana daşıyırlar.

Azərbaycan xalqının mədəni irsi bəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsi olduğundan istər Qərbi Azərbaycan, istərsə də Azərbaycan Respublikamızın işğal olunmuş ərazilərində xalqımızın çoxəsrlik tarixi keçmişindən yadigar qalmış tarix və mədəniyyət abidələrinin dağıdılması beynəlxalq əhəmiyyət kəsb edən bir problemdir. Erməni şovinistlərinin bütün bəşəriyyətə qarşı törətdikləri cinayətdir.

**Vaqif ƏSƏDOV**